www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-15 (1841) 16 sentyabr 2026-cı il



# Bilik Günü təntənəli şəkildə qeyd olunub

Rektor, professor Gəray Gəraybəyli: ATU-nun tələbəsi adını qazanmaq böyük zəhmət, yuxusuz gecələr və əzmkarlıq tələb edir

səh. 2

## Hərbi tibb fakültəsinin gənc kursantları and içib

səh. 3

## Tələbələrin klinik düşünmə bacarığı diqqət mərkəzindədir

səh. 4

## Əməkdaşlarımızın uğurları

səh.7



## Rektoryanı Şuranın ilk iclası keçirilib

ATU-nun rektoru, professor Gəray Gəraybəyli yeni tədris ilinin təşkili ilə bağlı tapşırıqlar verib

səh. 2

## I kurs tələbələri ilə görüşlər baş tutub

*ATU ailəsinin yeni üzvləri və onların valideynləri tədris korpusları və auditoriyalarla tanış olublar*

səh. 3

## Doktoranturaya qəbul üzrə ixtisas imtahanları davam edir

*22 ixtisası əhatə edən imtahanlarda 46 namizədin iştirakı nəzərdə tutulub*

səh. 2



## 22 məzunun seçimi: Sumqayıt gimnaziyasından ATU-ya uğur yolu

Yüksək nəticələrin yalnız imtahan günü əldə olunmadığını sübut edən Təbiət Elmləri Təmayüllü Gimnaziyadan reportaj

səh. 4-5

**Universitetimizdə 2026/2027-ci tədris ilinin başlanması ərəfəsində Rektoryanı Şuranın ilk iclası keçirilib. İclasda universitet rəhbərliyi, struktur bölmələrinin rəhbərləri, fakültə dekanları və dekan müavinləri, şöbə müdirləri, eləcə də digər məsul şəxslər iştirak ediblər.**

# Rektoryanı Şuranın ilk iclası keçirilib

ATU-nun rektoru, professor Gəray Gəraybəyli yeni tədris ilinin təşkili ilə bağlı tapşırıqlar verib



İclası giriş nitqi ilə açan rektor, professor Gəray Gəraybəyli gündəlikdə duran məsələlər barədə məlumat verərək, yeni tədris ilinə hazırlıq prosesinin əsas istiqamətlərini diqqətə çatdırıb. Rektor iclas çərçivəsində 2026/2027-ci tədris ilinin payız semestrinə hazırlığın mövcud vəziyyəti, yeni qəbul olunmuş tələbələrin universitetdə qeydiyyatının nəticələri, tələbə kontingenti ilə bağlı məsələlər, 2025/2026-cı tədris ilinin məzunlarına elektron diplomların təqdim edilməsi, eləcə də digər mühüm məsələlərin nəzərdən keçiriləcəyini vurğulayıb.

Gündəliyin ilk bəndi ilə bağlı Tədris departamentinin rəhbəri, dosent Kamandar Yaqubov çıxış edərək yeni tədris ilinə hazırlıq çərçivəsində həyata keçirilən tədbirlər, mövcud vəziyyət və qarşıda duran məsələlər barədə ətraflı məlumat verib.

Ardınca fakültələr üzrə hazırlıq vəziyyəti müzakirə olunub. I Müalicə-profilaktika fakültəsinin dekanı Elşad Novruzov, Stomatologiya fakültəsinin dekanı Elmira Əliyeva, Hərbi tibb fakültəsinin rəisi Məharət Rzayev, II Müalicə-profilaktika fakültəsinin dekan müavini Sevinc Məhərrəmova, Əczaçılıq fakültəsinin dekan müavini Esmira Hacıyeva və İctimai səhiyyə fakültəsinin dekan müavini Nailə Məmmədova payız semestrinə hazırlıqla bağlı görülmüş işlər və mövcud vəziyyət barədə məlumat veriblər.

Məruzələr dinlənildikdən sonra müzakirələr aparılıb, yeni tədris ilinin qarşıya qoyulan hədəflərə uyğun təşkili ilə bağlı fikir və təkliflər səsləndirilib. İclasın gündəliyində yer alan digər məsələlər də ətraflı nəzərdən keçirilib və onların hər biri üzrə səsvermə yolu ilə müvafiq qərarlar qəbul olunub.

İclasın yekununda çıxış edən rektor, professor Gəray Gəraybəyli yeni tədris ilində universitet qarşısında duran prioritet vəzifələrə toxunaraq, tədris prosesinin yüksək səviyyədə təşkili, idarəetmənin səmərəliliyinin artırılması və tələbələr üçün əlverişli akademik mühitin təmin olunmasının vacibliyini vurğulayıb.

Rektor aidiyyəti struktur bölmələrinin rəhbərlərinə yeni tədris ilinin uğurlu başlanması və tədris prosesinin fasiləsiz, keyfiyyətli və səmərəli təşkili ilə bağlı müvafiq tövsiyə və tapşırıqlarını da verib.

# Bilik Günü təntənəli şəkildə qeyd olunub

Rektor, professor Gəray Gəraybəyli: ATU-nun tələbəsi adını qazanmaq böyük zəhmət, yuxusuz gecələr və əzmkarlıq tələb edir





**Yeni tədris ilinin başlanması və Bilik Günü münasibətilə təntənəli tədbir keçirilib. Əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib. Sonra Azərbaycanın ərazi bütövlüyü və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.**




Tədbirdə çıxış edən rektor, professor Gəray Gəraybəyli professor-müəllim heyətini, tələbələri və valideynləri Bilik Günü münasibətilə təbrik edib: "Əziz I kurs tələbələri, siz bu gün həyatınızda ilk dəfə Bilik Gününü tələbə adını daşıyaraq, Tibb Universitetinin ərazisində, ATU ailəsinin üzvü kimi qarşılayırsınız. Bu münasibətlə sizi və ailələrinizi, valideynlərinizi ürəkdən təbrik edirəm. Çünki tələbə adını, xüsusən də Azərbaycan Tibb Universitetinin tələbəsi adını qazanmaq böyük əmək, zəhmət, yuxusuz gecələr və əzmkarlıq tələb edir. Tibb Universitetinə qəbul olunan tələbələr hər zaman yüksək bal toplayırlar. Bu ilki göstəricilərimiz isə xüsusilə yüksəkdir. Bu il universitetimizin tələbəsi adını qazanan gənclər ölkə üzrə ən yüksək nəticə göstərən abituriyentlər sırasındadırlar. Bu xüsusi təbrikə və hörmətə layiq məqamdır".

Rektor nəzərə çatdırıb ki, Azərbaycan Tibb Universiteti ölkəmizin ən böyük və qocaman ali təhsil müəssisələrindən biridir: "96 illik tarixə malik universitetimizin yetirmələri – görkəmli alimlər, məşhur həkimlər və elm xadimləri – nəinki Azərbaycanda, dünyanın hər yerində ölkəmizi layiqincə təmsil ediblər. Universitetimiz daim ölkə rəhbərliyinin diqqət və qayğısı ilə əhatə olunub. Ulu Öndər Heydər Əliyev dəfələrlə Tibb Universitetində olub, professor-müəllim heyəti və tələbələr qarşısında mühüm və dərin məzmunlu çıxışlar edib. Onun əsasını qoyduğu sosial və gənclər siyasəti bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir. Tibb təhsili, səhiyyə və ümumilikdə gənclərin inkişafı dövlət başçısının daim diqqət mərkəzindədir. Universitetimizin tədris klinikalarının təməlqoyma və açılış mərasimlərində Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva şəxsən iştirak ediblər.

Bu diqqət və qayğının mühüm göstəricilərindən biri də I kursa qəbul olunan tələbələrin böyük əksəriyyətinin dövlət hesabına təhsil almasıdır. Universitetimizdə dövlət hesabına təhsil alan tələbələrin sayı ildən-ilə artır.

Bu gün siz Azərbaycan Tibb Universitetinin böyük ailəsinə üzv olursunuz. Bu gündən etibarən sizin altıillik tələbə həyatınız başlayır. Bir daha sizi tələbə adı qazandığınıza görə ürəkdən təbrik edirəm. Tam əminəm ki, sizin iştirakınızla universitetimizin gələcək inkişafı daha da parlaq olacaq".

Tələbələr adından universitetə 700 balla qəbul olunan Samir Tağızadə, Vətən müharibəsi şəhidi, leytenant Ceyhun Niftəliyevin övladı Ayan Niftəliyeva və Vətən müharibəsi qəhrəmanı Anar Mirzəyevin qızı Rəhilə Mirzəyeva çıxış ediblər. Tələbələr qazandıqları uğura görə ailələrinə və müəllimlərinə, eləcə də təhsilə yüksək səviyyədə qayğı göstərən dövlətimizə təşəkkürlərini bildiriblər.

Sonra ürək sözlərini bölüşən Histologiya, embriologiya və sitologiya kafedrasının müdiri, professor Eldar Qasımov həkimlik kimi şərəfli və məsuliyyətli peşəni seçən gənclərə uğurlar arzulayıb.

Ardınca tələbələrin həkimliyi - təmizlik, peşəkarlıq, etibar və məsuliyyəti simvolizə edən ağ xalat geyinmə mərasimi baş tutub. Samir Tağızadə, Ayan Niftəliyeva və Rəhilə Mirzəyevanın həkim kimi ilk xalatları professor Gəray Gəraybəyli tərəfindən geyindirilib.

Tədbirin sonunda rektor, professor Gəray Gəraybəyli yüksək bal toplayan tələbələrə xatirə hədiyyələri təqdim edib.

Bayram tədbiri Azərbaycan Tibb Universitetinin himninin sədaları altında başa çatıb.

**Arif MƏMMƏDLİ**





# Doktoranturaya qəbul üzrə ixtisas imtahanları davam edir



Sentyabrın 14-dən etibarən doktoranturaya qəbul olmaq istəyən namizədlər ixtisas fənləri üzrə imtahanlarda iştirak edirlər. 18 sentyabradək keçiriləcək imtahanlar ümumilikdə 22 ixtisası əhatə edir. Bu mərhələdə 46 namizədin iştirakı nəzərdə tutulub.

İmtahan prosesinin əvvəlki mərhələsi fəlsəfə fənni üzrə Test Mərkəzində keçirilib. Namizədlərə 50 test sualı təqdim olunub. Sualların ən azı 25-nə düzgün cavab verən iştirakçılar ixtisas fənləri üzrə imtahana buraxılıblar.

Qeyd edək ki, bu il ATU-da doktoranturaya qəbul üçün ümumilikdə 68 nəfər qeydiyyatdan keçib. Namizədlər iyun ayında Dövlət İmtahan Mərkəzində xarici dil üzrə qəbul imtahanında iştirak ediblər. Uğur qazanan 46 namizəd növbəti mərhələyə buraxılıb.

**Xarici dillər kafedrasında yeni tədris ilinin başlanması ilə əlaqədar iclas keçirilib. Stomatologiya fakültəsinin dekanı, dosent Elmira Əliyeva və kafedra müdiri, professor Zemfira Məmmədova çıxış edərək yeni tədris ili ilə bağlı qarşıda duran əsas vəzifə və prioritetlər barədə fikirlərini bölüşüblər.**

# Xarici dillər kafedrasında iclas keçirilib



Çıxışlarda tədris prosesinin səmərəli təşkili, təhsilin keyfiyyətinin yüksəldilməsi və qarşıya qoyulan hədəflərin uğurla həyata keçirilməsi istiqamətində görüləcək işlər diqqətə çatdırılıb.

İclas zamanı yeni tədris ilində tədris prosesinin keyfiyyətli təşkili, tələbələrin davamiyyətinə nəzarətin gücləndirilməsi, tədris-metodiki fəaliyyətin təkmilləşdirilməsi, eləcə də tələbələrin bilik və bacarıqlarının inkişaf etdirilməsi istiqamətində görüləcək işlər ətrafında geniş müzakirələr aparılıb.

# Əməkdaşlarımız şəhidin anım mərasiminə qatılıb



Hərbi tibb fakültəsinin bir qrup əməkdaşı İsmayıllı rayonunun Talıstan kəndində şəhid Cavidan Bədəlovun anım mərasimində iştirak edib.

Əvvəlcə şəhidin məzarı ziyarət olunub və əziz xatirəsi ehtiramla yad edilib. Daha sonra fakültənin əməkdaşları şəhidin ailə üzvləri ilə görüşüblər.

Görüş zamanı Cavidan Bədəlovun ölkəmizin ərazi bütövlüyü uğrunda keçdiyi döyüş yolu, göstərdiyi şücaət və qəhrəmanlıqdan söz açılıb. Şəhid ailəsinə ehtiram ifadə olunub, Cavidanın Vətən qarşısındakı xidmətlərinin heç vaxt unudulmayacağı bildirilib.

Mərasimdə şəhidlərin xatirəsinin daim yaşadılması, onların həyat və döyüş yolunun gənc nəslə çatdırılmasının əhəmiyyəti vurğulanıb.

# I kurs tələbələri ilə görüşlər baş tutub

## ATU ailəsinin yeni üzvləri və onların valideynləri tədris korpusları və auditoriyalarla tanış olublar

**Sentyabrın 14-də I kurs tələbələri ilə tanışlıq xarakterli ənənəvi görüşlər keçirilib. Görüşlərdə fakültə dekanları, dekan müavinləri, akademik məsləhətçilər, eləcə də tələbə sevincini yaşayan gənclərin valideynləri iştirak ediblər.**

Görüşün əsas məqsədi yeni tələbələri fakültələrin tədris mühiti, daxili qaydaları və tələbəlik həyatının xüsusiyyətləri ilə tanış etmək, eyni zamanda onların universitetə uğurlu adaptasiyasına dəstək olmaq olub.



I Müalicə-profilaktika fakültəsinin dekanı, dosent Elşad Novruzov I kursa qəbul olunan tələbələri təbrik edərək, onlara tələbəlik həyatında uğurlar arzulayıb. Dekan fakültənin tarixi, inkişaf yolu və nailiyyətlərindən söz açaraq, tələbələrin müasir dünyagörüşə malik, savadlı və cəmiyyətə faydalı mütəxəssis kimi yetişməsinin əsas prioritetlərdən olduğunu vurğulayıb.

Sonra fakültənin tarixi və inkişaf yolunu əks etdirən videoçarx nümayiş olunub.

Görüşdə İctimai Nəzarət və Məsləhət Şurasının sədr müavini Aidə Bəndəliyeva da çıxış edərək, tələbələrə qarşıdakı təhsil illərində məsuliyyətli, savadlı və peşəkar mütəxəssis kimi yetişməyin vacibliyindən danışıb. A.Bəndəliyeva İctimai Nəzarət və Məsləhət Şurasının fəaliyyəti haqqında məlumat verərək, tələbələrin qarşılaşdıqları problemlərin həllinə dəstək göstərildiyini, onların təklif və müraciətlərinin nəzərə alındığını bildirib. O, universitetdə şəffaflığın və obyektivliyin qorunmasında şuranın rolunu diqqətə çatdırıb.

Görüş zamanı İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri, professor Nəriman Mövsümov, dekan müavini Mahir Quliyev və akademik məsləhətçi, dosent Sədaqət Rüstəmova da çıxış edərək, I kurs tələbələrinə ilk gündən dekanlıqla sıx və səmimi ünsiyyət qurmağın, universitetin ictimai həyatında fəal iştirak etməyin vacibliyini xatırladıblar.

* * *



Stomatologiya fakültəsinin dekanı, dosent Elmira Əliyeva fakültəyə qəbul olunan tələbələri və valideynlərini təbrik edərək, yeni tədris ilində onlara uğurlar arzulayıb. Görüşdə tələbələrə fakültənin və dekanlığın fəaliyyəti, tədris prosesinin təşkili, tələbələrə göstərilən dəstək barədə məlumat verilib.

Dekan tələbələri universitetin ictimai həyatında fəal iştirak etməyə, müəllim və tələbə yoldaşlarına hörmətlə yanaşmağa, daxili nizam-intizam qaydalarına riayət etməyə çağırıb. O, həmçinin dərslərdə davamiyyətin vacibliyini, ağ xalat və kalpakdan istifadə etməyin zəruri olduğunu diqqətə çatdırıb.

Dekan müavini Aysel Həşimova isə çıxışında I kursda tədris olunacaq fənlər, dərslərin keçirildiyi tədris binaları, davamiyyət qaydaları və tədris prosesinin təşkili ilə bağlı tələbələri məlumatlandırıb.

Tədbirdə fakültənin akademik məsləhətçiləri Həcər İsmayılova və Günay Əliyeva da iştirak ediblər.

* * *

Növbəti tədbir II Müalicə-profilaktika fakültəsinin I kurs tələbələri ilə keçirilib. Dekan, dosent İsrail Məhərrəmbəyli tələbələri və onların valideynlərini təbrik edərək, gələcəyin həkimlərinə bu şərəfli və məsuliyyətli peşəyə yiyələnmək yolunda uğurlar arzulayıb.

İ.Məhərrəmbəyli Azərbaycan Tibb Universitetinin ölkənin qədim və nüfuzlu ali təhsil müəssisələrindən biri olduğunu qeyd edərək fakültənin fəaliyyəti, kafedraları və tədris prosesi barədə qısa məlumat verib. Dekan həkimlik peşəsinin böyük məsuliyyət tələb etdiyini vurğulayaraq, tələbələrin təhsilə ciddi yanaşacağına, bilik və bacarıqlarını daim inkişaf etdirəcəklərinə əminliyini bildirib.



Dekan müavini, dosent Sevinc Məhərrəmova da tələbələri və valideynləri təbrik edərək, onları həkimlik peşəsinin şərəfini daim qorumağa səsləyib.

Anatomiya kafedrasının professoru Səbinə Şadlinskaya universitetə qəbulun həkimlik yolunun yalnız başlanğıcı olduğunu bildirib. Professor tələbələrə gələcək peşələrinə məsuliyyətlə yanaşmağı, bilikli, vicdanlı və peşəkar mütəxəssis kimi formalaşmaq üçün daim çalışmağı tövsiyə edib.

Ümumi cərrahlıq kafedrasının müdiri, professor Elçin Ağayev isə öz tələbəlik illərini xatırlayaraq, həkimlik peşəsinin zəhmət və əzm tələb etdiyini bildirib, gənclərə təhsil həyatında uğurlar arzulayıb.

* * *



İctimai səhiyyə fakültənin dekanı, dosent Qalina Qəniyeva tələbələri Azərbaycan Tibb Universitetinə qəbul olunmaları münasibətilə təbrik edərək, övladlarının bu mərhələyə çatmasında valideynlərin göstərdikləri dəstəyin əhəmiyyətini vurğulayıb: "Övladlarınızın bu gün Tibb Universitetinə qəbul olunması, şübhəsiz ki, sizin də böyük zəhmətinizin, əməyinizin və dəstəyinizin nəticəsidir. Lakin bu, yolun başlanğıcıdır. Qarşıda tələbələri yeni mühitə uyğunlaşmaq və müəyyən çətinliklərin öhdəsindən gəlmək mərhələsi gözləyir. Bu dövrdə onların valideyn dəstəyinə əvvəlkindən də çox ehtiyacı olacaq".

Q.Qəniyeva İctimai səhiyyə fakültəsində tədris olunan ixtisasların səhiyyə sistemindəki mühüm rolundan danışaraq tələbələrin üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edib: "Fakültəmiz səhiyyənin müxtəlif və həyat əhəmiyyətli istiqamətlərini özündə birləşdirir. Tibb bacısı və tibb qardaşı hər bir xəstəxananın təməli, səhiyyə xidmətinin ayrılmaz hissəsidir. Fizioterapiya və reabilitasiya mütəxəssisləri xəstəlik, zədə və müxtəlif sağlamlıq problemlərindən sonra insanların fiziki imkanlarının bərpasına və normal həyata qayıtmasına kömək edirlər. İctimai səhiyyə mütəxəssisləri isə tibbin strateqləridir. Onlar ayrı-ayrı pasiyentlərin deyil, bütövlükdə cəmiyyətin sağlamlığının qorunması və möhkəmləndirilməsi istiqamətində fəaliyyət göstərirlər".

Dekan müavini Nailə Məmmədova tələbələrə ali təhsil prosesinin təşkili ilə bağlı ətraflı məlumat verib. O, Boloniya kredit sistemi, fənlərin qiymətləndirilməsi, kreditlərin toplanması, akademik borclar və digər məsələlər barədə tələbələri məlumatlandırıb.

Görüşdə tələbələrin universitet həyatına daha asan uyğunlaşmaları, təhsil prosesinin imkanlarından səmərəli istifadə etmələri və gələcəkdə savadlı, peşəkar mütəxəssis kimi yetişmələri üçün üzərlərində davamlı işləmələrinin vacibliyi diqqətə çatdırılıb. I kurs tələbələrinə Azərbaycan Tibb Universitetinin maddi-texniki bazası, tələbə təşkilatları, daxili intizam qaydaları, mühazirə və praktik məşğələlərin təşkili, eləcə də imtahan prosesi barədə ətraflı məlumat verilib.

* * *

Əczaçılıq fakültəsində də I kurs tələbələri və onların valideynləri ilə görüş keçirilib.

Fakültənin dekanı, dosent Fərəh Mədətli yeni tələbələri universitetə qəbul olunmaları münasibətilə təbrik edib, onlara şərəfli və məsuliyyətli əczaçılıq peşəsinə yiyələnmək yolunda uğurlar arzulayıb. O, valideynləri də təbrik edərək övladlarının ATU tələbəsi adını qazanmasının böyük zəhmətin nəticəsi olduğunu vurğulayıb: "Siz artıq şagird deyil, tələbə valideynisiniz. Övladlarınızın ilk böyük uğurudur ki, sizin əməyinizin nəticəsində ölkənin ən yaxşı ali məktəblərindən birinin tələbəsi adına layiq görülüblər. Daha böyük uğurları isə hələ qarşıdadır. 96 illik şərəfli inkişaf yolu keçmiş və böyük nüfuza malik Azərbaycan Tibb Universitetinin auditoriyalarında təhsil almağın özü xüsusi üstünlükdür".



Fərəh Mədətli görkəmli dövlət xadimi Əziz Əliyevin təşəbbüsü ilə Azərbaycanda Əczaçılıq İnstitutunun yaradıldığını diqqətə çatdırıb. Bildirib ki, həmin dövrdə qonşu dövlətlər arasında əczaçılıq təhsili üçün ayrıca institutun yaradıldığı yeganə ölkə Azərbaycan olub.

Fakültənin beynəlxalq sertifikasiyadan keçməsinin üstünlüklərindən də danışan dekan bunun məzunların diplomlarının bir sıra xarici ölkələrdə tanınmasına imkan yaratdığını vurğulayıb.

İctimai Nəzarət və Məsləhət Şurasının sədr müavini Aida Bəndəliyeva görüşdə çıxış edərək Şuranın fəaliyyəti barədə məlumat verib. Bildirib ki, tələbələrin dərsə münasibəti, tədrisin keyfiyyəti, müəllimlərlə tələbələr arasında münasibətlər və digər məsələlərlə bağlı rəy və təkliflər komissiya tərəfindən araşdırılır, müvafiq tədbirlər görülür.

Yeni tələbə adını qazanan gənclərə dərs keçəcəkləri tədris korpusları, universitet klinikaları, tədris prosesi və imtahan sistemi barədə də məlumat verilib.

Fakültənin dekan müavini Esmira Hacıyeva, kompüter operatoru Könül Cavadova və ATU Tələbə Gənclər Təşkilatının sədri Amin Talıbov da I kurs tələbələri ilə öz ürək sözlərini bölüşərək, onların göstərilən etimadı doğruldacaqlarına əminliklərini ifadə ediblər.

Görüş zamanı fakültə məzunlarının uğur hekayələrindən də söz açılıb, tələbələrə gələcək təhsil və peşə fəaliyyətlərində uğurlar arzulanıb.

Qeyd edək ki, görüşlərdən sonra I kurs tələbələri və onların valideynləri fakültələrin əməkdaşları və fəal tələbələrin müşayiəti ilə universitet şəhərciyini gəzərək tədris korpusları və auditoriyalarla əyani tanış olublar.

**Aytac ƏSƏDOVA**

## Hərbi tibb fakültəsinin gənc kursantları and içib



Hərbi tibb fakültəsində gənc kursantların andiçmə mərasiminə həsr olunmuş təntənəli tədbir keçirilib. Sıra meydanında təşkil olunan mərasim şəxsi heyətin təntənəli düzülüşü və fakültə rəisinə məruzə olunması ilə başlayıb.

Tədbir açıq elan edildikdən sonra Ümummilli Lider Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Gənc kursantlar Vətənə, xalqa və dövlətə sədaqətlə xidmət edəcəklərinə and içiblər.

Mərasimdə çıxış edən fakültə rəisi, tibb xidməti polkovniki Məharət Rzayev gənc kursantları təbrik edib, onlara gələcək xidmətlərində müvəffəqiyyətlər arzulayıb.

Daha sonra Hərbi həkim ixtisası hazırlığı kursunun kursantı Nahid Şirinov yoldaşları adından çıxış edərək göstərilən etimadı doğruldacaqlarına söz verib. Mərasimdə çıxış edən valideynlər də öz növbəsində gənc kursantlara xeyir-dua verərək sevinc və qürur hisslərini bölüşüblər.

# 22 məzunun seçimi: Sumqayıt gimnaziyasından Azərbaycan Tibb Universitetinə uğur yolu

## Yüksək nəticələrin yalnız imtahan günü əldə olunmadığını sübut edən Təbiət Elmləri Təmayüllü Gimnaziyadan reportaj



**Hər il Azərbaycan Tibb Universitetinə müxtəlif ümumtəhsil müəssisələrindən yüksək balla məzunlar daxil olur. Lakin builki qəbul nəticələri diqqətçəkən məqamlarla xüsusi fərqləndi. Belə ki, Sumqayıt şəhərində fəaliyyət göstərən Təbiət Elmləri Təmayüllü Gimnaziyanın 22 məzunu ali təhsilini ATU-da davam etdirmək qərarına gəlib. Gimnaziyanın 66 məzununun hamısının ali məktəblərə qəbul olunması xüsusilə diqqətəlayiqdir.**

Bu uğurun arxasında illər ərzində formalaşmış təhsil ənənəsi, müəllimlərin peşəkarlığı, şagirdlərin məqsədyönlü hazırlığı və valideynlərin dəstəyi dayanır. Elə biz də "Təbib" qəzeti olaraq, bu böyük uğura necə nail olunduğunu yerində öyrənmək məqsədilə adıçəkilən gimnaziyaya baş çəkdik.

### 66 məzun – 66 qəbul



Gimnaziyanın direktoru Nizami Əhmədovun sözlərinə görə, bu ilki 66 məzunun hamısı ali məktəblərə qəbul olub. Onlardan 22-nin Azərbaycan Tibb Universitetini seçməsi isə təhsil ocağının kollektivi üçün xüsusi qürur mənbəyidir. Başqa sözlə, gimnaziya məzunlarının hər üç nəfərindən biri gələcək həyatını tibb sahəsi ilə bağlamaq qərarına gəlib.

Direktor qeyd edir ki, bu göstərici təsadüfi deyil. Təbiət elmlərinə xüsusi önəm verilən gimnaziyada kimya, biologiya və fizika fənlərinin tədrisinə geniş yer ayrılır. Bu fənlərə maraq göstərən və onları dərindən mənimsəyən şagirdlərin tibb ixtisaslarına yönəlməsi də təbii nəticədir.

N.Əhmədovun sözlərinə görə, gimnaziyanın məzunları yüksək bilik və bacarıqları ilə seçilir. Bu il 42 məzun 600-dən, onların 32-i isə 650-dən yuxarı bal toplayıb. Məzunlardan biri 700 bal nəticə göstərib və o da Azərbaycan Tibb Universitetini seçib. Bundan başqa, üç şagird blok imtahanında maksimal 400 bal toplayıb. Onlardan ikisi təhsilini ATU-da davam etdirəcək.

Gimnaziyanın uğurları qəbul imtahanı göstəriciləri ilə məhdudlaşmır. Bu il təhsil müəssisəsinin məzunları arasında 15 qızıl və 3 gümüş medalçı olub. Onlardan 8-i artıq Azərbaycan Tibb Universitetinin tələbəsidir.

Direktor hesab edir ki, bütün bu göstəricilər gimnaziyada yaradılmış təhsil mühiti, müəllimlərin peşəkarlığı və şagirdlərin öz üzərində davamlı işləməsinin nəticəsidir. Onun fikrincə, müəllimin vəzifəsi yalnız bilik verməklə məhdudlaşmamalıdır. Müəllim şagirdin potensialını üzə çıxarmalı, onun inkişafına şərait yaratmalı, müstəqil düşünməsi və qarşıya qoyduğu məqsədə doğru inamla irəliləməsinə kömək etməlidir. Bu prosesdə müəllimin öz üzərində işləməsi və peşəkarlığını daim artırması da xüsusi əhəmiyyət daşıyır.

N.Əhmədov valideynlərin rolunu da xüsusi vurğulayır. Onun sözlərinə görə, məktəb, müəllim, şagird və valideyn arasında düzgün əməkdaşlıq olmadan yüksək nəticələr əldə etmək çətindir. Valideyn övladının təhsili ilə yaxından maraqlanmalı, onun dərslərini mənimsəməsi üçün evdə əlverişli şərait yaratmalı və müəllimlərin tövsiyələrinə dəstək verməlidir.

### Təbiət elmləri – uğurun əsas istiqaməti



Gimnaziyanın kimya müəllimi Elçin Əsədli də yüksək nəticələrin ilk növbədə məqsədyönlü və sistemli hazırlığın nəticəsi olduğunu bildirir. Onun sözlərinə görə, şagirdlərin uğur qazanmasında müəllimlərin fədakar əməyi ilə yanaşı, onların öz üzərlərində davamlı çalışmaları mühüm rol oynayır.

E.Əsədli hesab edir ki, hər bir şagirdin fərdi potensialını düzgün müəyyənləşdirmək və həmin potensialın inkişafına istiqamət vermək tədris prosesinin əsas vəzifələrindəndir. Şagird yalnız dərslikdəki məlumatları əzbərləməklə kifayətlənməməli, əldə etdiyi bilikləri tətbiq etməyi və müstəqil düşünməyi də bacarmalıdır.

Müəllimin fikrincə, bu il yüksək nəticə göstərən məzunların uğuru onların uzunmüddətli zəhməti, intizamı və qarşıya qoyduqları məqsədə doğru inamla irəliləmələrinin nəticəsidir. Xüsusilə ATU-ya qəbul olan məzunların gimnaziyada qazandıqları fundamental biliklərin gələcək tələbəlik həyatında onlar üçün möhkəm baza rolunu oynayacağına inanır.

### Zəngin ənənələrdən gələn uğur

Gimnaziyanın biologiya müəllimi Aygün Əhmədova isə təhsil ocağının uğurlarının arxasında uzun illər ərzində formalaşmış zəngin ənənənin dayandığını bildirir.

Onun sözlərinə görə, gimnaziyanın tarixi Sumqayıt şəhərinin tarixindən də qədimdir. İlk dövrlərdə müxtəlif adlarla fəaliyyət göstərən məktəb sonrakı illərdə şəhərin inkişafı ilə paralel olaraq formalaşıb və bu gün təbiət elmləri istiqamətində ixtisaslaşmış təhsil müəssisələrindən birinə çevrilib.

A.Əhmədova özü də bu məktəblə uzun illərdir bağlıdır. O həm vaxtilə şagird, həm də hazırda müəllim kimi gimnaziyanın mühitini yaxından tanıyır və 2009-cu ildən burada fəaliyyət göstərir.



Biologiyanın tədrisi zamanı əsas məqsədinin şagirdə əvvəlcə müəllimi, daha sonra isə fənni sevdirmək olduğunu deyən A.Əhmədova bildirir ki, şagird müəlliminə güvəndikdə, onun tədris etdiyi fənnə marağı da artır. Müəllim hesab edir ki, bütün şagirdlərə eyni cür yanaşmaq düzgün deyil. Çünki hər bir uşağın fərqli potensialı, qabiliyyəti və bacarığı var. Buna görə də şagirdin fərdi xüsusiyyətləri nəzərə alınmalı və onun potensialına uyğun yanaşma seçilməlidir.

A.Əhmədovanın sözlərinə görə, bəzən aşağı siniflərdə başqa fənlərə maraq göstərən şagirdlər sonrakı illərdə biologiyaya yönəlməyə başlayırlar. Onun üçün ən sevindirici məqam isə şagirdlərin biologiyanı yalnız ali məktəbə qəbul olunmaq üçün öyrənmələri deyil, həqiqətən bir elm sahəsi kimi sevmələridir.

### ATU ilə əməkdaşlıq faydalı olardı

Gimnaziyanın təbiət elmləri istiqamətindəki nəticələri müxtəlif fənn olimpiadalarında da özünü göstərir. A.Əhmədovanın sözlərinə görə, bu il Respublika Fənn Olimpiadasında gimnaziyanın şagirdləri 15 medal qazanıblar. Həmin medallardan 5-i biologiya fənni üzrə əldə olunub.

Gimnaziyanın təbiət elmləri istiqamətindəki səviyyəsi şagirdlərin yalnız nəzəri biliklərə deyil, praktik bacarıqlara yiyələnməsi ilə də ölçülür. Bu baxımdan laboratoriya və təcrübə imkanlarının olması mühüm əhəmiyyət daşıyır. Xüsusilə biologiya olimpiadalarının praktik mərhələsində şagirdlərdən laboratoriya şəraitində işləmək, canlı orqanizmlərlə bağlı praktik biliklərdən istifadə etmək bacarığı tələb olunur.

A.Əhmədova qeyd edir ki, mövcud imkanlar kifayət etmədikdə, gimnaziya digər təhsil müəssisələri ilə əməkdaşlıq edir. Bu il Respublika Fənn Olimpiadasının praktik mərhələsinə hazırlıq məqsədilə Sumqayıt Dövlət Universiteti ilə əməkdaşlıq nəticəsində şagirdlər burada müxtəlif praktik çalışmalar həyata keçiriblər. Müəllim gələcəkdə Azərbaycan Tibb Universiteti ilə də bu istiqamətdə əməkdaşlığın qurulmasını məqsədəuyğun hesab edir. Onun fikrincə, ATU-nun laboratoriya imkanlarından istifadə edilməsi, şagirdlərin burada praktik məşğələlər keçməsi onların canlı biologiya üzrə biliklərini daha da möhkəmləndirə bilər.

### Uğur əvvəlcədən planlaşdırılır



Gimnaziyanın fizika müəllimi Könül Xasıyeva diqqətimizə çatdırır ki, builki nəticələr gözlənilməz olmayıb. Onun sözlərinə görə, şagirdlərin təhsil təməli hələ 5-ci sinifdən qoyulur və gələcək nəticələr üzərində illər ərzində məqsədyönlü iş aparılır.

Müəllim bildirir ki, gimnaziyada şagirdlərin inkişaf dinamikasının izlənilməsinə xüsusi diqqət yetirilir. Şagirdlər 9-cu sinifdən 10-cu sinfə keçərkən onların hər biri pedaqoji şurada ayrıca müzakirə olunur, bilik və bacarıqları, gələcək potensialı qiymətləndirilir. Müəllimlər şagirdin 11-ci sinfi hansı nəticə ilə başa vura biləcəyi barədə proqnozlarını səsləndirirlər. Bu proqnozlar xüsusi şəkildə qeydə alınır və müəllimlər tərəfindən təsdiqlənir. K.Xasıyeva əlavə edir ki, builki nəticələrin proqnozları üstələməsi kollektiv üçün xüsusilə sevindirici olub.

Lakin yüksək nəticə üçün yalnız bilik kifayət etmir. Müəllim şagirdlərin psixoloji hazırlığına da diqqət yetirildiyini bildirir. İmtahan zamanı həyəcanı idarə etmək, özünəinamı qorumaq və mövcud bilikləri düzgün tətbiq etmək uğurun mühüm şərtləridir.

Bu məqsədlə gimnaziyada şagirdlər müxtəlif sınaq və imtahanlara cəlb olunur. Olimpiadalara hazırlaşan şagirdlərlə isə ayrıca və fərdi iş aparılır, əlavə məşğələlər təşkil edilir, dərsdən sonra hazırlıqlar keçirilir. Şagirdlər dərsliklərlə yanaşı, əlavə kitablar, elmi mənbələr və müxtəlif tədris materialları üzərində işləyirlər.

Təbiət fənləri üzrə genişləndirilmiş tədris proqramı da bu istiqamətdə əlavə imkanlar yaradır. Təbiət fənlərinə ayrılan dərs saatlarının çoxluğu şagirdlərlə daha geniş və dərin işləməyə şərait yaradır.

### Müəllim uğurun hərəkətverici qüvvəsidir



Kimya müəllimi Nəzakət Əşrəfova gimnaziyanın illərdir qazandığı uğurlarda məktəb rəhbərliyinin, xüsusilə direktorun təşəbbüskarlığı və dəstəyinin mühüm rol oynadığını bildirir.

(davamı səh. 5-də)

(əvvəli səh. 4-də)

Onun sözlərinə görə, builki nəticələr arasında 700 bal toplayan Samir Tağızadənin IV ixtisas qrupu üzrə Azərbaycan Tibb Universitetinə qəbul olması xüsusi diqqət çəkir. Bununla yanaşı, yüksək bal toplayan və müxtəlif medal və nailiyyətlər əldə edən məzunların çoxluğu da gimnaziyanın uğurlu fəaliyyətinin göstəricisidir. N.Əşrəfova da burada valideyn, şagird, müəllim və məktəbin birgə əməyinin nəticəsini önə çəkir.

Onun özü üçün isə builki uğur həm də ikiqatdır. Belə ki, qızı Nərmin Əşrəfova da gimnaziyanın məzunudur və 650 balla Azərbaycan Tibb Universitetinə qəbul olunub.

### 14 məzunun uğur hekayəsi



Şəhla Əhmədovanın rəhbərlik etdiyi 11A sinfində 20 şagird təhsil alıb. Onlardan 14-ü Azərbaycan Tibb Universitetini seçib. Şagirdlərdən üçü fənn olimpiadalarının qalibi olduğu üçün ali məktəblərə imtahansız qəbul hüququ qazanıb.

Ş.Əhmədova üçün bu nəticə bir müəllim kimi böyük qürur mənbəyidir. Bildirir ki, şagirdlərinin hər birinə öz övladı kimi yanaşır və onların uğurlarını bir valideynin öz övladının nailiyyətinə sevindiyi qədər böyük sevinclə qarşılayır. Sinif rəhbərinin sözlərinə görə, şagirdlərinin uğurları onu yalnız sevindirmir, həm də gələcəyə dair ümidləndirir. O bundan sonra da onların həyatdakı nailiyyətlərini izləyəcəyini və uğurlarına sevinəcəyini deyir.

### 700 bal və uşaqlıq arzusu

Gimnaziyanın builki məzunları arasında 700 bal toplayaraq Azərbaycan Tibb Universitetinə qəbul olan Samir Tağızadənin uğuru xüsusi diqqət çəkir.

Samirin sözlərinə görə, həkimlik uşaqlıq arzusu olub. Ailəsində həkim olmasa da, bu peşəyə xüsusi maraq göstərib. Onun fikrincə, həkimlik həm şərəfli, həm də insanlara xidmət etmək imkanı verən məsuliyyətli peşədir.

Samir aşağı siniflərdən qarşısına məqsəd qoyub ki, ali təhsilini ATU-da alsın. O həmişə öz potensialına güvəndiyini və ali məktəbə qəbul olacağına inandığını bildirir. Lakin 700 bal toplamağın daha böyük məsuliyyət və ciddi hazırlıq tələb etdiyini vurğulayır. Bu nəticənin əldə olunmasında ailəsinin, müəllimləri, dostları və yaxınlarının dəstəyini xüsusi qeyd edən tələbəmiz, qarşısında artıq daha böyük hədəflərin dayandığını deyir. İndi onun əsas məqsədi seçdiyi peşənin layiqli nümayəndəsi olmaqdır.

### Tibbə aparan yollar

Azərbaycan Tibb Universitetinə qəbul olan Fidan Mirzəyevanın tibbə marağının formalaşmasında isə ailəsinin mühüm rolu olub. Ailəsində tibb sahəsində çalışan insanların olması onun bu peşəyə marağını daha da artırıb. Fidan gələcəkdə yaxşı həkim olmaq və tələbəlik illərində bilik və bacarıqlarını daha da inkişaf etdirmək niyyətindədir.

ATU-ya 661 balla qəbul olan Şəmsəddin Piriyev isə hələ 5 yaşından həkim olmaq istəyib və bu məqsədini illər ərzində dəyişməyib. Şəmsəddin qarşısına qoyduğu məqsədə çatmaq üçün səylə çalışdığını, qəbulda əldə etdiyi nəticəni böyük uğur hesab etdiyini bildirir.

Gimnaziyanın digər məzunu Ruqiyyəxanım Şərifzadənin tibbə marağında da ailəsi və yaxın çevrənin təsiri böyük olub. Ətrafında, xüsusilə dostları arasında tibb sahəsinə maraq göstərən insanların olması onun seçimində rol oynayıb.

Aysel Fərhadova yüksək nəticə əldə etmək üçün uzun müddət məqsədyönlü şəkildə hazırlaşdığını bildirir. Onun üçün ATU-ya qəbul olmaq böyük sevincdir. Aysel gələcəkdə hansı ixtisası seçəcəyinə hələ tam qərar vermədiyini, tələbəlik dövründə seçimini dəqiqləşdirəcəyini deyir.

Nərmin Əşrəfova həkim olmaq arzusuna çatmaq üçün səylə çalışıb və 650 bal toplayıb. Qəbul xəbərini eşidərkən böyük sevinc və həyəcan keçirdiyini bildirən Nərmin bu uğurun arxasında böyük zəhmətin dayandığını deyir.

660 bal toplamış Aysu Dadaşovanın fikrincə, ATU-ya qəbul olması bundan sonra da öz üzərində çalışması və seçdiyi sahədə özünü inkişaf etdirməsi üçün ona əlavə motivasiya verəcək.

Bir ailənin iki uğuru

Gimnaziyanın məzunları arasında bir ailənin iki övladı – bacı-qardaş Həmid və İnci Mursaquliyevlərin eyni ildə ATU-ya qəbul olunması da diqqətçəkən məqamlardandır. İnci 690.2, Həmid isə 667 bal toplayıb.

Böyük sevinc və qürur hissi yaşadıqlarını deyən Həmid və İnci, əldə etdikləri nəticədə müəllimlərinin zəhməti və ailənin mənəvi dəstəyini xüsusi vurğulayırlar.

Bacı-qardaşın eyni sinifdə təhsil alaraq eyni universitet və ixtisası seçməsi onların təhsil həyatında yaddaqalan məqamlardan biridir. Gimnaziyadan başlayan birgə təhsil yolu bundan sonra Azərbaycan Tibb Universitetində davam edəcək.

### Həkim və hərbçi olmaq arzusu bir arada

ATU-nun Hərbi tibb fakültəsinə qəbul olan Rəsul Ömürzadənin seçimində isə iki fərqli arzu birləşib. Rəsulun ilkin arzusu hərbçi olmaq olub. Atasının hərbçi olması bu istəyin formalaşmasına təsir edib. Sonradan ATU-da həm həkimlik, həm də hərbçilik istiqamətini özündə birləşdirən Hərbi tibb fakültəsinin olduğunu öyrənən Rəsul, öz arzularını bu istiqamətdə reallaşdıra biləcəyini düşünüb.

O, fakültə haqqında 9-10-cu siniflərdə məlumat əldə etdiyini və seçim imkanlarını araşdırdıqdan sonra bu istiqamətə üstünlük verdiyini bildirir. Rəsul üçün bu seçim həm atasının yolunu davam etdirmək, həm də özünün həkimlik arzusunu həyata keçirmək baxımından əhəmiyyət daşıyır. Valideynlərinin onun seçimini dəstəklədiyini bildirən tələbəmiz, gələcəkdə yaxşı mütəxəssis olmaq üçün qarşısına ciddi məqsədlər qoyub.

### Yüksək nəticə yalnız imtahan günü qazanılmır

Təbiət Elmləri Təmayüllü Gimnaziyanın builki nəticələri bir daha göstərir ki, yüksək nəticə yalnız imtahan günü qazanılmır. Bu nəticənin təməli illər əvvəl qoyulur. Arasıkəsilməz təhsil prosesi, məktəbin təqdim etdiyi imkanlar, müəllimlərin fərdi yanaşması, olimpiada və müsabiqələrə hazırlıq, valideyn dəstəyi və ən əsası, şagirdlərin öz məqsədlərinə inamı sonda qəbul nəticələrində öz əksini tapır.

**Qabil ABDULLAYEV**

# Kafedra müdirinin yubileyi qeyd olunub



**Sentyabrın 7-də Tədris Cərrahiyyə Klinikasında Azərbaycan Tibb Universitetinin Qulaq, burun və boğaz xəstəlikləri kafedrasının müdiri, professor Vəfa Pənahianın 60 illik yubileyi qeyd olunub.**

Yubiley tədbirində əvvəlcə V.Pənahianın həyatından və qazandığı uğurlardan bəhs edən videoçarx nümayiş etdirilib.

Ağız, üz və çənə cərrahiyyəsi kafedrasının müdiri, professor Çingiz Rəhimov çıxış edərək yubilyarın həkimlərin və elmi kadrların hazırlanmasına yönəlmiş tədris, elmi, metodiki və təşkilati fəaliyyətindən, yüksək insani keyfiyyətlərindən söz açıb. O, yubilyarın həm də tanınmış bir nəsil şəcərəsinin nüfuzlu nümayəndəsi olduğunu xatırladaraq, onun tibb elminin inkişafına verdiyi töhfələrdən danışıb.

Professor Vəfa Pənahianın II Qarabağ Müharibəsi dövrü və müharibədən sonrakı xidmətlərinə xüsusi diqqət çəkən natiq bildirib ki, o vaxt pandemiya səbəbindən klinikanın fəaliyyəti dayandırılmışdı: “Ancaq həkimlərimizin təşəbbüsü ilə klinikanın fəaliyyəti bərpa olundu və cəbhə bölgəsindən göndərilən ən ağır yaralıları qəbul etməyə başladıq. Vəfa müəllim ilk gündən yanımızda idi və biz birlikdə çox mürəkkəb əməliyyatlar apardıq. Ona görə yubilyarın Vətən müharibəsi dövründə peşəkar həkim kimi qazilərə yüksək səviyyəli tibbi xidmət göstərdiyini və vətənpərvər bir insan kimi hər kəsə qayğı ilə yanaşdığını xüsusi vurğulamaq istədim. Bütövlükdə isə rəhbərlik etdiyi kafedranın əməkdaşları, eləcə də bütün həmkarları və tələbələri arasında böyük hörmət qazanan yubilyara bir daha gələcək fəaliyyətində uğurlar arzulayıram!”

Uzun illər bu kafedraya rəhbərlik etmiş professor Əzizağa Talışınskiy də kafedranın tarixi ənənəsini qoruyub saxlayan, öz işinin öhdəsindən layiqincə gələn yubilyarı təbrik edib.

Daha sonra Stomatologiya fakültəsinin dekanı, dosent Elmira Əliyeva, II Cərrahi xəstəliklər kafedrasının professoru Xaləddin Musayev, Qulaq, burun və boğaz xəstəlikləri kafedrasının professoru Azər Xudiyev, dosentlər Rəşad Talışinskiy, Cabbar Cəlilov, Ayaz Qasımov, Ortodontiya kafedrasının müdiri, professor Ramidə Şadlinskaya, Xarici dillər kafedrasının müdiri, professor Zemfira Məmmədova, Terapevtik stomatologiya kafedrasının professoru Ağa Paşayev, dosent Ramiz Əhmədbəyli, Oftalmologiya kafedrasının müdiri, professor Paşa Musayev (Qəlbinur), Uşaq cərrahiyyəsi kafedrasının müdiri, professor Ramiz Poluxov, Ağız, üz və çənə cərrahiyyəsi kafedrasının professoru Elçin Əhmədov və başqaları çıxış edərək yubilyarın həyat yolundan söz açıb, ona fəaliyyətində yeni-yeni uğurlar arzulayıblar.

Sonda çıxış edən V.Pənahian göstərilən diqqətə görə tədbirin təşkilatçılarına və bütün iştirakçılara minnətdarlığını bildirib.

# Tələbələrin klinik düşünmə bacarığı diqqət mərkəzindədir



**Səriştəəsaslı təhsil modelinin inkişaf etdirilməsi və beynəlxalq standartların tədris prosesinə tətbiqi istiqamətində təlimlər təşkil olunub.**

Tədris işləri üzrə prorektorluğun nəzdində yaradılmış işçi qrupun təşəbbüsü, Tibb və sağlamlıq elmləri təhsili kafedrasının əməkdaşlarının dəstəyi ilə təşkil olunan təlimlərə universitetin klinik kafedralarının nümayəndələri cəlb edilib.

Təlimlərin əsas məqsədi tələbələrdə klinik düşünmə və təhlil bacarıqlarının inkişaf etdirilməsi, eləcə də klinik bacarıqların beynəlxalq standartlara uyğun, vahid və obyektiv meyarlar əsasında qiymətləndirilməsi yanaşmalarının tədris prosesinə inteqrasiyası olub.

Təlim proqramı çərçivəsində iştirakçılara klinik bacarıqların qiymətləndirilməsinin beynəlxalq prinsipləri, müasir qiymətləndirmə metodları və onların praktik tətbiqi barədə ətraflı məlumat verilib. İştirakçılara qiymətləndirmə prosesinin standartlaşdırılmasına və obyektivliyinin təmin edilməsinə xidmət edən müvafiq standartlar, qiymətləndirmə formaları, nümunələr, şablonlar və metodik materiallar təqdim olunub.

Praktik məşğələlər və müzakirələr zamanı qiymətləndirmə alətlərinin klinik kafedralarda tətbiqi, müəllimlər arasında vahid qiymətləndirmə meyarlarının formalaşdırılması və tələbələrin klinik bacarıqlarının sistemli şəkildə izlənilməsi məsələlərinə xüsusi diqqət yetirilib.

# Göz xəstəliklərinə dair təlim keçirilib

**Oftalmologiya kafedrasında göz xəstəliklərinin diaqnostikası və müalicəsində malpraktis hallarına həsr olunmuş təlim keçirilib.**



Təlimdə malpraktisin mahiyyəti, oftalmoloji praktikada mümkün səhvlər, onların pasiyent sağlamlığına təsiri və bu halların hüquqi aspektləri barədə ətraflı məlumat verilib.

Mövzu üzrə mühazirə ilə çıxış edən tibb elmləri doktoru, dosent Tural Qəlbinur bildirib ki, oftalmologiyada malpraktis halları müxtəlif səbəblərdən yarana bilər. Bunlara iltihabi proseslərin idarə edilməsində gecikmələr, pasiyentin müalicə prosesinin yetərincə izlənilməməsi, cərrahi müdaxilələrin mümkün risklərinin pasiyentə lazımi səviyyədə izah edilməməsi, eləcə də cərrahi ağırlaşmalar daxildir.

Təlim zamanı gecikmiş və ya yanlış diaqnostikanın oftalmologiyada ciddi, bəzi hallarda isə geridönməz nəticələrə səbəb ola biləcəyi vurğulanıb. Xüsusilə qlaukoma, şəkərli diabetin fəsadlarından olan diabetik retinopatiya, torlu qişa qopmaları və göz travmaları zamanı vaxtında və düzgün diaqnostikanın mühüm əhəmiyyət daşıdığı qeyd olunub.

Məruzəçi malpraktis iddiasının hüquqi baxımdan əsaslandırılması üçün bir sıra mühüm meyarların nəzərə alınmasından da bəhs edib.

**Ziyalı keyfiyyətləri ilə həyatı mənalandıran, aqil və müdrik insanlar cəmiyyətimiz üçün bəşər tarixi boyu nümunə olublar. Belə ünlü şəxsiyyətlərin zəngin həyat yolu, elmi və pedaqoji fəaliyyətləri, insani keyfiyyətləri yalnız yaşadıqları dövr üçün deyil, gələcək nəsillər üçün də kamil və yetkin bir məktəbə çevrilmişdir. Onların qoyub getdikləri irs zaman keçdikcə öz əhəmiyyətini itirmir, əksinə, yeni nəsillərin formalaşmasına xidmət edən əbədi bir məktəbə çevrilir.**

# Azərbaycan pediatriyasının inkişafında bir əsrlik elmi irs

## Keçmişdən gələcəyə körpü: 100 illik yubileyin elmi-tarixi əhəmiyyəti



Akademik Adilə Namazovanın həyat və yaradıcılıq yolu məhz bu cür şəxsiyyətlərə xas olan elmi ardıcıllığın, pedaqoji fədakarlığın və yüksək ziyalılığın parlaq nümunəsidir. Onun şəxsiyyətində alimlik, müəllimlik və insanlıq məfhumları vahid bir mənəvi bütövlük təşkil edir.

Akademikin 100 illik yubileyinin tarixi əhəmiyyəti onun zəngin irsinin müasir pediatriyanın inkişafında öz aktuallığını saxlaması ilə müəyyən olunur. Müasir dövrdə Azərbaycan səhiyyəsinin prioritet istiqamətləri sırasında uşaq sağlamlığının qorunmasına elmi-konseptual yanaşma, pediatrik xidmətin elmi dəlillərə əsaslanan prinsiplər əsasında təkmilləşdirilməsi, tibbi kadrların hazırlanmasında yüksək peşəkarlıq, intizam və humanist dəyərlərin vəhdətinin təmin edilməsi xüsusi rol oynayır. Bu səbəbdən, A.Namazovanın yaratdığı elmi məktəbin və ənənələrin gələcək nəsillərə ötürülməsi mühüm əhəmiyyət daşıyır. Belə ki, onun elmi baxışları və irəli sürdüyü fundamental prinsiplər bu gün də öz aktuallığını qoruyur. Adilə xanımın 100 illik yubileyi yalnız görkəmli alimin həyat və fəaliyyətinə ehtiramın ifadəsi deyil, eyni zamanda onun zəngin elmi irsinin müasir tibb elmi və səhiyyə sistemi üçün əhəmiyyətinin yenidən dəyərləndirilməsi, elmi ənənələrin davamlılığının təmin edilməsi və gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından mühüm elmi-tarixi hadisədir.

Akademik A.Namazova ilə birlikdə çalışan hər bir insan, yalnız zəngin elmi təcrübəyə əsaslanan elmi məktəbdən deyil, həm də yüksək mənəvi dəyərlərə söykənən həyat məktəbindən keçmişdir. O, elmi prinsipiallığı, obyektivliyi və peşəkarlığı ilə yanaşı, insanlara münasibətdə səmimiyyəti, diqqəti, qayğıkeşliyi və təvazökarlığı ilə seçilirdi. Ətrafındakı hər bir insana – istər həmkarına, istər tələbəsinə, istərsə də gənc tədqiqatçıya böyük hörmət və həssaslıqla yanaşması onun zəngin şəxsiyyətinin mühüm göstəricilərindən biri idi. Məhz bu xüsusiyyətlər onu yalnız görkəmli alim və pedaqoq deyil, həm də əsl ziyalı, yüksək mənəviyyat sahibi və kamil insan kimi səciyyələndirir.

Onun üçün həkimlik peşəsi yalnız peşəkar fəaliyyət deyil, insan sağlamlığı və cəmiyyət qarşısında yüksək məsuliyyət missiyası idi. O, insanlara göstərdiyi sonsuz qayğı və diqqət, səmimiyyət, ən yüksək bəşəri keyfiyyətləri, nəcibliyi və sadəliyi ilə hər kəsə bariz insanlıq nümunəsidir. Akademikin uşaqlarda ürək-damar sistemi xəstəliklərinin tədqiqi, revmatizm (revmatik qızdırma), anadangəlmə ürək qüsurları, hipertoniya, hipotoniya və s. patologiyalara aid elmi yenilikləri pediatriya elminin inkişafına güclü təkan vermişdir.

Adilə xanım üçün pediatriya yalnız xəstəliklərin diaqnostikası və müalicəsi deyil, uşaq sağlamlığının və gələcək həyat keyfiyyətinin qorunmasına yönəlmiş kompleks elmi-praktik fəaliyyət sahəsi idi. Onun yanaşmasında uşağın klinik vəziyyəti ilə yanaşı, fiziki və psixosocial inkişafı, həyat keyfiyyəti və gələcək sosial adaptasiyası da nəzərə alınırdı. Bu baxış onun elmi fəaliyyətində profilaktik, proqnostik və sosial yönümlü pediatrik yanaşmanın formalaşmasına mühüm töhfə vermişdir.

Görkəmli alim elmi-ictimai fəaliyyətinə və xidmətlərinə görə Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə 1996-cı ildə "Şöhrət" ordeni, 2011-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Şərəf" ordeni və Azərbaycanda tibb elminin inkişafında roluna, tibb kadrlarının yetişdirilməsində uzunmüddətli səmərəli fəaliyyətinə görə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib. Bununla yanaşı, Adilə xanım Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü, Rusiya Elmlər Akademiyasının üzvü, Əməkdar elm xadimi idi.

100 illik yubiley bir insan ömrünün sadəcə təqvim göstəricisi deyil. Bu, bir alim ömrünün elmi nəticələrinin, bir müəllim ömrünün yetişdirdiyi nəsillərin və bir ziyalı ömrünün cəmiyyətə bəxş etdiyi mənəvi dəyərlərin ümumiləşdirildiyi əlamətdar tarixdir. A.Namazovanın 100 illik yubileyi həm keçmişin elmi irsinə dərin ehtiramı, həm də həmin irsin müasir və gələcək nəsillərin elmi-praktik fəaliyyətində davam etdirilməsinə yönəlmiş perspektiv baxışın parlaq təcəssümüdür.

Onun adı Azərbaycan tibb tarixində yalnız görkəmli pediatr-alim kimi deyil, həm də uşaq sağlamlığının qorunması, pediatriya elminin inkişafı və gələcək nəslin sağlam formalaşmasına elmi-pedaqoji töhfələr vermiş nüfuzlu şəxsiyyət kimi yaşayır.

Akademik Adilə Namazovanın əziz xatirəsi daim ehtiramla yad olunacaq, onun elmi məktəbi və pedaqoji irsi yeni nəsil həkim və alimlərin fəaliyyətində yaşamaqda davam edəcəkdir.

**Nailə SULTANOVA,**
*II Uşaq xəstəlikləri kafedrasının müdiri, professor*

# Şəfa ilə elmi, zəka ilə mərhəməti bir ömürdə birləşdirən şəxsiyyət

## Akamedik Adilə Namazova üçün pediatriya xalqın sabahına cavabdehlik idi

**Görkəmli insanların yubileyləri təkcə bir insanın deyil, həm də bütöv bir məktəbin məxsusi düşüncə tərzinin, hətta milli məsuliyyət anlayışının yenidən xatırlanması üçün əsasa çevrilir. Akademik Adilə Namazovanın anadan olmasının 100 illik yubileyi də Azərbaycan tibb elminin inkişafında dərin iz qoymuş bənzərsiz alimin xatirəsini yad etməklə, ölkəmizdə pediatriyanın necə milli elmi istiqamətə çevrildiyini göstərən ictimai-mənəvi hadisədir.**

Alimin yubileyini əlamətdar edən cəhətlərdən biri də budur ki, bu tarix Azərbaycan qadınının elm tarixində tutduğu yüksək mövqeni də yada salır. 1971-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü seçilən ilk azərbaycanlı qadın alim olmaq böyük uğur idi. Bu, Azərbaycan elmi mühitinin yetkinliyini, milli kadr potensialının və qadın intellektinin yüksək səviyyədə tanınmasını göstərirdi. Adilə Namazovanın ideyaları bu gün də aktualdır.

Onun Azərbaycan elmi və səhiyyəsində rolunu yalnız "görkəmli alim", "tanınmış pediatr", "böyük təşkilatçı" kimi ifadələrlə izah etmək yetərli deyil. Adilə xanımın fəaliyyətində klinika, elm, təhsil, dövlət siyasəti və ictimai məsuliyyət bir-birini tamamlayan istiqamətlər kimi görünürdü. Bu rolun ən mühüm təzahürlərindən biri Azərbaycan pediatriya elmi məktəbinin yaradılması idi. Bir vaxt ölkədə belə bir məktəbin olmaması onu ciddi düşündürürdü. Alim mövcud boşluğu doldurmaq üçün elmi və təşkilati mexanizm qurdu. Sonralar E.Əfəndiyev adına 2 saylı Şəhər Xəstəxanasında xüsusi biokimyəvi laboratoriyanın və ürək-tənəffüs sisteminin funksional fəaliyyətini araşdıran elektrofizioloji mərkəzin yaradılması həmin prosesin mühüm mərhələsi idi. Adilə Namazova həmin mərkəzə gənc həkimləri, tələbələri cəlb edir, onları müşahidə aparmağa, düşünməyə, müqayisə etməyə, nəticə çıxarmağa sövq edirdi. Başqa sözlə, o, təkcə elmi müəssisə yaratmırdı, təfəkkür laboratoriyası qururdu. Onlarla fəlsəfə və elmlər doktorluğu dissertasiyalarının müdafiəsi, 60-dan artıq alimin onun məktəbinin yetirməsi olması da bunun nəticəsi idi.

Adilə xanımın elmi fəaliyyətində uşaqlarda ürək-damar sistemi xəstəlikləri, xüsusən anadangəlmə ürək qüsurlarının tədqiqi xüsusi yer tuturdu. Hələ Moskva elmi mühitində apardığı tədqiqatlar zamanı oksigemometriya, pnevmotaxometriya, venoqrafiya, pletizmoqrafiya, daha sonra vektorkardioqrafiya, rentgen-elektrokimoqrafiya, angiokardioqrafiya kimi metodlardan istifadə etməsi alimin nə qədər yenilikçi düşüncəyə malik olduğunu göstərir.

Bu tədqiqatlar sayəsində o, uşaqlarda revmatizmin fəal mərhələsində ürəkdə baş verən dəyişiklikləri elmi əsaslarla izah etdi, anadangəlmə ürək qüsurlarının diaqnostikasını dəqiqləşdirdi, kiçik qan dövranında durğunluğun dərəcəsini və təzyiq göstəricilərini qiymətləndirdi, cərrahlara və pediatrlara praktik istifadə üçün təsnifat və yanaşmalar təqdim etdi. Adilə xanımın işlədiyi metodikalar, sadəcə, nəzəri maraq doğurmurdu, uşaqların taleyinə birbaşa təsir edən qərarların elmi əsasını möhkəmləndirirdi.

Adilə Namazova elmdəki yeniliklərinə görə SSRİ Dövlət İxtira Komitəsindən 5 ixtira vəsiqəsini əldə edib. Alimin elmi-tədqiqat işlərinin nəticələri beynəlxalq elmi jurnallarda dərc olunub, Yaponiya, ABŞ, İngiltərə, Hindistan, Əlcəzair, Avstriya, İtaliya, Türkiyə, Fransa, Almaniya, Rusiya, İsrail, Argentina, Belçika, İspaniya, Misir və digər ölkələrdə keçirilən elmi konqres və konfranslarda yüksək qiymətləndirilib. Adilə xanım 350-dən çox məqalənin, 30-dan çox monoqrafiya, dərslik və kitabın, eyni zamanda, MDB məkanında "Tibbi etika" adlı ilk dərsliyin müəllifidir.

Akademikin irsində uşaq sağlamlığına yalnız tibbi problem kimi yox, milli təhlükəsizlik məsələsi kimi yanaşılır. Bu fikir bu gün çox aktual səslənsə də, onun elmi və ictimai fəaliyyətə başladığı dövrlərdə belə sistemli şəkildə irəli sürülməsi xüsusi uzaqgörənlik tələb edirdi. O, yaxşı anlayırdı ki, sağlam nəsil təsadüfən yox, düşünülmüş dövlət siyasəti, güclü səhiyyə sistemi və savadlı cəmiyyət hesabına formalaşır.

Adilə xanım üçün pediatriya yalnız xəstə uşağın müalicəsi deyildi, eyni zamanda, xalqın sabahına cavabdehlik idi. O, uşağın xəstəliyinə diaqnoz qoyarkən tibbi nəticə ilə yanaşı, uşağın necə böyüyəcəyini, hansı həyat keyfiyyətinə sahib olacağını, cəmiyyətə necə inteqrasiya edəcəyini, hansı peşəni seçəcəyini düşünürdü. Difteriya epidemiyası dövründə profilaktik tədbirlərə verdiyi önəm, peyvənd proqramlarının inkişafına töhfəsi, ictimai səhiyyə sahəsindəki liderliyi də məhz bu strateji yanaşmadan doğurdu. Bu gün profilaktika, immunizasiya, erkən diaqnostika və maarifləndirmə dünyanın bütün müasir səhiyyə sistemlərinin əsas prinsipləri sayılırsa, Adilə Namazova bu prinsipləri Azərbaycan şəraitində çox erkən dövrdə elmi və praktiki müstəviyə çıxarmışdı. Adilə xanımın bioetika sahəsində fəaliyyəti də uşaq sağlamlığının geniş mənada qorunmasına xidmət edirdi. 2000-ci ildən ölkəmizdə tibbi bioetikanın elmi istiqamət olaraq tibb təhsilinə inteqrasiyasına nail olunub və dünya təcrübəsindən, beynəlxalq əməkdaşlıqdan faydalanaraq tibbi bioetikanın tədrisini müvəffəqiyyətlə həyata keçirmək istiqamətində mühüm addımlar atılıb.

Artıq 26 ildən çoxdur ki, Azərbaycan Tibb Universitetində "Tibbi bioetikanın əsasları" fənni tədris olunur. Tibbi bioetikanın tibb tədrisinə daxil edilməsi, Azərbaycan dilində vəsaitlərin hazırlanması, həkimin yalnız müalicə edən yox, həm də mənəvi məsuliyyət daşıyan şəxs kimi yetişdirilməsi, əslində, insan kapitalının keyfiyyətinə yatırılan sərmayə idi.

Alimin sədrliyi ilə Azərbaycan Pediatrlar Assosiasiyasının fəaliyyəti çərçivəsində uşaq hüquqları ilə bağlı maarifləndirmə layihələrinin həyata keçirilməsi də eyni məntiqə söykənir. Uşaq hüquqlarını qorumaq sağlam cəmiyyət quruculuğunun mühüm şərtidir. Bu mənada, Adilə Namazovanın elmi irsi təkcə pediatrlar üçün deyil, hüquqşünaslar, müəllimlər, sosial işçilər və dövlət idarəçiləri üçün də əhəmiyyətli düşüncə qaynağıdır. 100 illik zaman məsafəsindən baxanda akademik A.Namazovanın ömrü bir insan taleyindən daha böyük görünür. O, şəfa ilə elmi, zəka ilə mərhəməti, vətəndaşlıqla müəllimliyi bir ömürdə birləşdirən nadir simalardan idi. Bu gün alimin 100 illik yubileyini qeyd edərkən yetirmələrinin, davamçılarının və bütövlükdə, Azərbaycan tibb ictimaiyyətinin düşüncəsində bir həqiqət yenidən səslənir: Adilə xanım bu dünyadan getsə də, onun ziya işığı hələ də minlərlə uşağın taleyində, yüzlərlə həkimin düşüncəsində və milli səhiyyəmizin tarixində yaşayır.

**Təranə TAĞI-ZADƏ,**
*II Uşaq xəstəlikləri kafedrasının dosenti, Azərbaycan Pediatrlar Assosiasiyasının sədri, tibb üzrə fəlsəfə doktoru*



# Sağlamlıq və təhsilə həsr edilmiş ömür



**Epidemiologiya və biostatistika kafedrasının dosenti Elman Vahabovun 75 yaşı, əmək fəaliyyətinin 55, elmi-pedaqoji fəaliyyətinin isə 50 ili tamam olub.**

E.Vahabov 1951-ci il iyulun 7-də Azərbaycanın füsunkar guşələrindən biri olan Oğuz rayonunun Kərimli kəndində ziyalı ailəsində anadan olub. Orta məktəbi 1968-ci ildə gümüş medalla bitirib və həmin il N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olub. 1974-cü ildə institutu fərqlənmə diplomu ilə bitirərək təyinatla Azərbaycan Elmi-Tədqiqat Tibbi Parazitologiya və Tropik Təbabət İnstitutuna göndərilib. Burada baş laborant vəzifəsindən institutun elmi katibi vəzifəsinədək müxtəlif vəzifələrdə çalışıb.

1980-84-cü illərdə Moskvada Y.İ.Marsinovski adına Tibbi Parazitologiya və Tropik Təbabət İnstitutunun qiyabi aspirantı olub. 1986-cı ildə dissertasiya işini müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsi, 1990-cı ildə isə "baş elmi işçi" elmi adı alıb.

1992-ci ildə müsabiqə yolu ilə Azərbaycan Tibb Universitetinin Epidemiologiya kafedrasına assistent vəzifəsinə seçilib. 1996-cı ildən dosent vəzifəsində çalışır və bu gün də fəaliyyətini kafedrada davam etdirir.

Uzun müddət kafedranın tədris-hissə müdiri, təqribən 20 il ərzində isə universitetin nəzdində epidemiologiya, mikrobiologiya, immunologiya və allerqologiya, yoluxucu xəstəliklər ixtisasları üzrə yaradılan dissertasiya şuralarının elmi katibi olub. Hazırda isə dissertasiya şurasının üzvüdür. Bundan əlavə, ATU-nun mikrobiologiya, immunologiya və yoluxucu xəstəliklər üzrə problem komissiyasının üzvüdür.

E.Vahabov 90-dan çox elmi əsərin, o cümlədən 4 metodik göstərişin, 1 tədris-metodik göstərişin, 3 dərs vəsaitinin və epidemioloji nəzarətə dair 2 kitabın müəllifidir. Respublikada parazitar xəstəliklərlə, xüsusən də malyariya ilə mübarizə sahəsində xüsusi xidmətləri vardır. E.Vahabovun bu xidmətləri Səhiyyə Nazirliyi tərəfindən təşəkkürnamə və fəxri fərmanlarla qiymətləndirilib. 1983-cü ildə keçmiş SSRİ Səhiyyə Nazirliyi, 2018-ci ildə isə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən "Səhiyyə əlaçısı" döş nişanları ilə təltif edilib.

Öz əməksevərliyi, sadəliyi, təvazökarlığı və peşəkarlığı sayəsində çalışdığı kollektivin, tələbələrin və əhatəsində olan insanların dərin hörmətini qazanmış Elman müəllimi 75 illik yubileyi münasibətilə təbrik edir, ona uzun ömür, möhkəm cansağlığı və şərəfli fəaliyyətində yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Epidemiologiya və biostatistika kafedrasının kollektivi**

**Ömrünün 70-ci baharını, müdriklik çağını yaşayan böyük ziyalımız, Şuşa torpağının nəcib ruhunu özündə daşıyan dəyərli alimimiz - Əczaçılıq toksikologiyası və kimyası kafedrasının dosenti Namiq Şahid oğlu Rəsulovu səmimi qəlbdən təbrik edirik!**



# Elm və müəllim fədakarlığı ilə keçən həyat yolu

70 il sadəcə təqvim vərəqlərinin dəyişməsi deyil - bu illərin arxasında Şuşanın zəngin mədəniyyəti və məğrurluğu ilə yoğrulmuş bir ömür yolu, elmə həsr olunmuş gərgin zəhmət və ölkəmizə qazandırılan yüzlərlə savadlı mütəxəssis durur.

1956-cı ildə Şuşa şəhərində müəllim ailəsində dünyaya göz açan N.Rəsulov Şuşa şəhər 4 saylı orta məktəbi bitirdikdən sonra indiki Bakı Dövlət Universitetinin kimya fakültəsinə daxil olub və ali təhsilini kimyaçı, kimya müəllimi ixtisası üzrə başa vurub. O, 1980-81-ci illərdə Şuşa şəhər 72 №-li texniki-peşə məktəbində laborant, 1981-88-ci illərdə AMEA-nın Xlor Üzvi Sintez İnstitutunda mühəndis və elmi işçi, 1988-91-ci illərdə AMEA-nın Xüsusi Konstruktor Texnoloji Bürosunda laboratoriya müdiri vəzifələrində çalışıb. 1986-cı ildə isə dissertasiya müdafiə edərək kimya üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb.

5 ixtira, 60 elmi məqalə və tezis, 2 dərslik və 13 dərs vəsaiti olmaqla, ümumilikdə 80 elmi əsərin müəllifidir. O cümlədən, hər bir müəllimin elmi fəaliyyəti üçün önəmli olan Q1 kvartilli jurnallarda məqalələri dərc olunub.

1991-ci ildə müsabiqə yolu ilə Azərbaycan Tibb Universitetinin Əczaçılıq toksikologiyası və kimya kafedrasına assistent, 1996-cı ildə baş müəllim və 2003-cü ildə dosent vəzifəsinə seçilib. 15 il kafedranın tədris-hissə müdiri kimi fəaliyyət göstərən N.Rəsulov 2018-ci ildən həm də kafedra həmkarlar təşkilatının sədridir.

Namiq müəllim ailəlidir, iki övladı var. Onun tibb sahəsinə olan sevgisindən ilhamlanan hər iki övladı Azərbaycan Tibb Universitetinin məzunudur.

Tanrının bu gün Namiq müəllimə bəxş etdikləri arasında ən böyük xoşbəxtlik isə 70 illik yubileyini doğma və azad Şuşamızda zəfər qüruru ilə qeyd edə bilməsidir.

Bu əlamətdar gündə biz də hörmətli həmkarımıza möhkəm cansağlığı, tükənməz həyat enerjisi, ailə səadəti və elmi-pedaqoji fəaliyyətində yeni uğurlar arzulayırıq!

**Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının əməkdaşları**

# Əməkdaşlarımızın uğurları

İnnovasiya və keyfiyyətin idarəedilməsi şöbəsinin rəhbəri, dosent Aygün Babayeva nüfuzlu beynəlxalq qurumlar tərəfindən təqdim olunan, müasir səhiyyə, təhsil, rəqəmsal innovasiya və dayanıqlı inkişafın aktual istiqamətlərini əhatə edən dörd ixtisaslaşmış təlim proqramını uğurla başa vuraraq beynəlxalq sertifikatlarla təltif olunub. Tamamlanan proqramlar süni intellektin səhiyyədə etik və məsuliyyətli tətbiqi, teletibb, inklüziv təlimin təşkili, eləcə də iqlim dəyişiklikləri ilə mübarizə və dayanıqlı fəaliyyət kimi qlobal əhəmiyyət daşıyan mövzuları əhatə edir.

Əməkdaşımızın müvafiq istiqamətlər üzrə yeni bilik və bacarıqlar əldə etməsi Azərbaycan Tibb Universitetində müasir və innovativ tibbi təhsilin inkişafına, eləcə də daha inklüziv və keyfiyyətli səhiyyə xidmətlərinin formalaşdırılmasına töhfə verir.

* * *

I Mamalıq-ginekologiya kafedrasının professoru, tibb elmləri doktoru Nigar Kamilovanın ixtiraları Koreyada keçirilən beynəlxalq sərgidə yüksək qiymətləndirilib. "Korea International Women's Invention Exposition 2026" sərgisində iştirak edən professorun təqdim etdiyi ixtiralar sərginin medalları ilə təltif olunub.

N.Kamilovanın innovativ fəaliyyətində mamalıq və perinatal tibdə rəqəmsal texnologiyalar, süni intellekt və tibbi gerontologiya xüsusi yer tutur. Onun müəllifləri sırasında olduğu PHI™ (Pregnancy Health Index) sistemi hamilə qadın və dölün fasiləsiz monitorinqinə, mümkün ağırlaşmaların erkən aşkarlanmasına və risklərin proqnozlaşdırılmasına yönəlib. Lifemap Human konsepsiyası isə süni intellekt əsasında insanın fərdi rəqəmsal əkizinin yaradılmasını nəzərdə tutur.

N.Kamilovanın həmmüəllifi olduğu "Qadın cinsiyyət orqanlarının iltihabi xəstəliklərinin diaqnostikası üsulu" adlı ixtiraya da Avrasiya patenti verilib.

* * *

Nevrologiya kafedrasının dosenti, Epilepsiya Əleyhinə Beynəlxalq Liqanın (International League Against Epilepsy – ILAE) Azərbaycan bölməsinin katibi Şəhla Məlikova Afinada keçirilən 16-cı Avropa Epilepsiya Konqresində universitetimizi təmsil edib.

Epileptologiya üzrə dünyanın aparıcı elmi platformalarından biri olan konqres 100-dən çox ölkədən 4000-dən artıq həkim və aparıcı mütəxəssisi bir araya gətirib. Elmi proqram çərçivəsində müxtəlif ölkələrdən 300-dən çox alim epilepsiyanın diaqnostikası, müalicəsi və tədqiqinin aktual istiqamətləri üzrə məruzələrlə çıxış edib.

Beynəlxalq tədbirdə əməkdaşlarımız - Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəyli və Şəhla Məlikovanın epilepsiyalı hamilə qadınlarla bağlı apardıqları elmi-tədqiqatın nəticələri təqdim edilib. Araşdırmanın nəticələri mütəxəssislər tərəfindən maraqla qarşılanıb və elmi sessiyalar çərçivəsində geniş müzakirə olunub.

* * *

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının assistenti, doktorant Samirə Mirhadi Amsterdam şəhərində keçirilən beynəlxalq elmi konfransda "Yaşla əlaqədar sensorinevral eşitmə itkisində lateralizasiya" mövzusunda məruzə ilə çıxış edib. Tədqiqatın elmi rəhbəri professor Rafiq Çobanovdur.

Tədqiqatda yaşlı şəxslərdə sensorinevral eşitmə itkisinin sağ, sol və ikitərəfli rastgəlmə xüsusiyyətləri, eləcə də eşitmə itkisinin lateralizasiyası ilə dominant əl arasında mümkün əlaqə araşdırılıb.

Bakı şəhərində fəaliyyət göstərən bir gerontoloji mərkəz və üç ambulator poliklinikanın tibbi sənədləri əsasında aparılan araşdırmanın nəticələri yaşla əlaqədar sensorinevral eşitmə itkisində müəyyən lateralizasiya xüsusiyyətlərinin olduğunu göstərib.

Araşdırmaya əsasən, sağtərəfli eşitmə itkisinə daha çox rast gəlindiyi, eşitmə itkisinin ağırlıq dərəcəsinin yaş artdıqca yüksəldiyi, həmçinin eşitmə itkisinin tərəfi ilə dominant əl arasında nəzərəçarpan əlaqənin olduğu müəyyənləşdirilib.

* * *

Patologiya kafedrasının müəllimi, tibb üzrə fəlsəfə doktoru Arzu İbişova Çinin Çenqde Tibb Universitetində (Chengde Medical University) keçirilən beynəlxalq tibbi təlim proqramında iştirak edib.

Təlim çərçivəsində A.İbişova sözügedən universitetin Patologiya üzrə Tədris və Elmi-Tədqiqat Ofisinin direktoru Vey Yancze ilə görüşüb, universitetin və klinikanın müxtəlif şöbələri, eləcə də Patologiya Mərkəzinin fəaliyyəti ilə tanış olub.

Beynəlxalq proqram çərçivəsində A.İbişova müxtəlif tibbi və akademik istiqamətlər üzrə mütəxəssislərlə görüşlərdə iştirak edərək, müasir yanaşmalarla tanış olub, eyni zamanda ATU-nun tədris və elmi-tədqiqat fəaliyyəti ilə bağlı məlumatları bölüşüb.

* * *

Hərbi tibb fakültəsi Tədris şöbəsinin elmi işlər üzrə müavini, milli təhlükəsizlik və hərbi elmlər üzrə fəlsəfə doktoru, tibb xidməti polkovnik-leytenantı Saleh Əhmədov Tailandda keçirilən beynəlxalq təlim kursunda Azərbaycanı təmsil edib.

Tailand Beynəlxalq Əməkdaşlıq Agentliyinin təşkilatçılığı ilə Mae Fah Luang Universitetində keçirilən "Sərhəd ərazilərdə səhiyyə sisteminin gücləndirilməsi" adlı beynəlxalq təlim kursu sərhədyanı ərazilərdə səhiyyə xidmətlərinin təşkili və epidemioloji təhlükəsizliyin təmin olunması üzrə qabaqcıl təcrübələrin öyrənilməsinə həsr edilib.

Üç həftə davam edən proqram çərçivəsində iştirakçılar Tailandın Myanma, Laos və Kamboca ilə sərhədyanı ərazilərində səhiyyə sistemlərinin fəaliyyəti ilə yaxından tanış olublar. Təlimdə sərhədyanı səhiyyənin təşkili, epidemioloji nəzarət, yoluxucu xəstəliklərin profilaktikası və idarə olunması, beynəlxalq səhiyyə-karantini, miqrant və digər həssas qrupların tibbi xidmətlərə çıxışı, fövqəladə hallara hazırlıq və regional səhiyyə əməkdaşlığı kimi aktual məsələlər müzakirə olunub.

* * *

Nevrologiya kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru Nuridə Tağıyeva Norveçdə keçirilən "SIG Mobility In-between Meeting 2026" adlı beynəlxalq elmi tədbirdə iştirak edib.

O, "Yeni diaqnoz qoyulmuş dağınıq skleroz xəstələrində erkən multidissiplinar reabilitasiya: mövcud sübutlar və klinik yanaşmalar" mövzusunda elmi məruzə ilə çıxış edib. Məruzədə dağınıq skleroz zamanı erkən və fərdiləşdirilmiş multidissiplinar reabilitasiyanın əhəmiyyəti, funksional problemlərin vaxtında qiymətləndirilməsi və pasiyentlərin həyat keyfiyyətinin qorunmasına yönəlmiş müasir yanaşmalar təqdim olunub.

* * *

Uşaq və yeniyetmələrdə baş ağrılarının öyrənilməsinə həsr olunmuş elmi-tədqiqatın ilkin nəticələri III Baltik Baş Ağrısı Konqresində təqdim olunub.

Nevrologiya kafedrasının dissertantı Sərxan Əmirquliyev konqresdə "Distribution of primary headache disorders in children and adolescents" adlı elmi işlə çıxış edib. Tədqiqat beynəlxalq mütəxəssislərin marağına səbəb olub.

Elmi iş ATU-nun Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birgə həyata keçirdiyi genişmiqyaslı layihə çərçivəsində hazırlanıb. Professor Aytən Məmmədbəylinin rəhbərlik etdiyi layihənin əsas məqsədi Azərbaycan məktəblərində uşaqlar və yeniyetmələr arasında baş ağrılarının, xüsusilə miqrenin yayılma səviyyəsinin və klinik xüsusiyyətlərinin öyrənilməsidir.

Tədqiqat çərçivəsində uşaq və yeniyetmələr arasında baş ağrılarının yayılması, müxtəlif baş ağrısı növlərinin xüsusiyyətləri və onların klinik göstəriciləri araşdırılır.

# İt dişləməsi nəticəsində zədələnmiş burun bərpa olunub

**Tədris Cərrahiyyə Klinikasında ağır travmanın aradan qaldırılması məqsədilə növbəti mürəkkəb rekonstruktiv əməliyyat uğurla icra olunub. İt dişləməsi nəticəsində burun nahiyəsində ciddi toxuma itkisi yaranan pasiyent klinikaya müraciət edib.**

Burunun böyük hissəsinin itirilməsi ilə nəticələnən travma pasiyentin həm xarici görünüşünə, həm də burun funksiyalarına ciddi təsir göstərib. Burun strukturunun və funksiyasının bərpası üçün pasiyentə mərhələli rekonstruktiv əməliyyat tətbiq olunub.

Əməliyyat Ağız, üz və çənə cərrahiyyəsi kafedrasının müdiri, professor Çingiz Rəhimovun rəhbərliyi ilə, plastik, estetik və rekonstruktiv cərrahiyyə üzrə rezident, tibb üzrə fəlsəfə doktoru Dilqəm Məhərrəmov tərəfindən həyata keçirilib. Burun toxumalarının bərpası zamanı supratroxlear arteriya əsaslı paramedian forehead flap və otogen kompozit qreftdən ibarət rekonstruktiv yanaşma tətbiq olunub. Rekonstruksiya nəticəsində zədələnmiş burun toxumalarının anatomik bütövlüyünün bərpasına nail olunub.

Əməliyyatın əsas məqsədi yalnız pasiyentin xarici görünüşündə yaranmış defekti aradan qaldırmaq deyil, eyni zamanda burunun funksional imkanlarını da mümkün qədər bərpa etmək olub.

Qeyd edək ki, bu, TCK-da it dişləməsi nəticəsində burun nahiyəsində yaranmış geniş toxuma defektinin rekonstruksiyası ilə bağlı həyata keçirilən ilk belə əməliyyat deyil. Bir müddət əvvəl də oxşar mürəkkəb rekonstruktiv əməliyyat həkimlərimiz tərəfindən uğurla icra olunmuşdu.



# Adenoid hipertrofiyası olan uşaqlar vaxtında müayinə edilməlidir

**Qulaq, burun, boğaz xəstəlikləri kafedrasının dosenti, Tədris Cərrahiyyə Klinikasının Otorinolarinqologiya şöbəsinin müdiri Rəşad Talışınskinin sözlərinə görə, 16 yaşlı pasiyentdə burun tənəffüsünün ciddi şəkildə pozulması ilə əlaqədar kompleks cərrahi müdaxilə həyata keçirilib.**

Pasiyent uşaq yaşlarında adenotomiya əməliyyatı keçirib, lakin son illərdə burun tənəffüsünün yenidən pisləşməsi müşahidə olunub. Aparılan müayinələr zamanı burun çəpərinin kəskin deformasiyası, aşağı burun çanaqlarının hipertrofiyası və adenoid toxumasının təkrar hipertrofiyası müəyyən edilib. Əməliyyat zamanı burun çəpərinin deformasiyası düzəldilib, aşağı burun çanaqları kiçildilib və adenoid toxuması endoskopik nəzarət altında xaric edilib. Çıxarılan toxuma histoloji müayinəyə göndərilib.

R.Talışınski əməliyyatöncəsi müayinələrin əhəmiyyətini də vurğulayıb. Onun sözlərinə görə, yanaşı xəstəliklərin və mümkün risklərin qiymətləndirilməsi məqsədilə zəruri hallarda kardioloq və pulmonoloqun müayinəsi vacibdir. Bu pasiyentdə də əməliyyatdan əvvəl aparılan müayinələr zamanı aritmiya aşkarlanıb.




Həkim qeyd edib ki, adenoid toxumasının təkrar böyüməsi fərdi xüsusiyyətlərdən asılıdır və xüsusilə allergik xəstəlikləri olan, tez-tez respirator infeksiyalara yoluxan uşaqlarda müşahidə oluna bilər. Adenoid toxumasını tamamilə kökündən xaric etmək hər zaman mümkün olmadığından, əsasən hipertrofiyaya uğramış hissə çıxarılır və bəzi hallarda əməliyyatdan sonra yenidən böyümə baş verə bilər. Uzunmüddətli adenoid hipertrofiyası burun tənəffüsünün pozulmasına, ağızdan nəfəsalmaya və yuxu keyfiyyətinin pisləşməsinə, həmçinin uşağın diqqət və yaddaş funksiyalarına, üz-çənə skeletinin inkişafına mənfi təsir göstərə bilər. Bu səbəbdən ifadəli adenoid hipertrofiyası olan uşaqlarınvaxtında müayinə və müalicəsi mühüm əhəmiyyət daşıyır.

# Tələbələrimiz yay məktəblərində iştirak edib

**Tələbələrimiz Türkiyənin Rəcəb Tayyib Ərdoğan Universitetində 3 həftəlik yay məktəbi proqramında iştirak ediblər.**




Bu yay məktəbi Azərbaycan Tibb Universitetinin tərəfdaş ali təhsil müəssisələri ilə həyata keçirdiyi növbəti uğurlu beynəlxalq akademik proqramlardan biridir. Proqram universitetlər arasında imzalanmış əməkdaşlıq memorandumu çərçivəsində təşkil olunub və bu cür tərəfdaşlıqların tələbələr üçün yaratdığı real imkanların daha bir nümunəsidir.

Əməkdaşlıq memorandumu əsasında tələbələr beynəlxalq yay məktəblərində iştirak etmək, fərqli akademik mühitlə tanış olmaq, yeni bilik və bacarıqlar əldə etmək, həmçinin beynəlxalq əlaqələrini genişləndirmək imkanı qazanırlar.

Yay məktəbi müddətində tələbələr universitetin akademik mühiti ilə yaxından tanış olub, müxtəlif tədris fəaliyyətlərində iştirak edərək nəzəri biliklərini möhkəmləndirib və praktik təcrübələrini artırıblar. Eyni zamanda onlar yerli tələbələrlə ünsiyyət quraraq yeni dostluqlar və gələcək əməkdaşlıqlar üçün əlaqələr formalaşdırıblar.

* * *



Universitetimizdə Tibb və Stomatologiya ixtisasları üzrə təhsil alan tələbələr Türkiyənin Ege Universitetində təşkil olunmuş bir aylıq yay məktəbi proqramında iştirak ediblər.

Proqram çərçivəsində tələbələrimiz Ege Universitetinin müvafiq fakültələrində təşkil olunan nəzəri və praktik təlimlərdə iştirak edib, müasir tədris metodları və klinik yanaşmalarla tanış olublar.

ATU-nun Beynəlxalq əlaqələr şöbəsinin təşkilatçılığı ilə baş tutan yay məktəbi tələbələrə yalnız akademik biliklərini artırmaq deyil, eyni zamanda beynəlxalq akademik mühitdə təcrübə qazanmaq, həmkarları ilə fikir mübadiləsi aparmaq və müxtəlif ölkələrdən olan tələbələrlə ünsiyyət qurmaq imkanı yaradıb.

* * *

Türkiyənin nüfuzlu Dokuz Eylül Universitetində keçirilən dörd həftəlik Yay məktəbi proqramı başa çatıb.

Beynəlxalq əməkdaşlıq çərçivəsində həyata keçirilən proqram tələbələr üçün nəzəri biliklərin klinik praktikada möhkəmləndirilməsi, müasir tibbi yanaşmaların öyrənilməsi və beynəlxalq təcrübə qazanılması baxımından mühüm imkan yaradıb.

Bir ay ərzində tələbələrimiz Dokuz Eylül Universitetinin müxtəlif klinika və şöbələrində praktik hazırlıq keçiblər. Onlar təcrübəli həkim və professorların fəaliyyətini yaxından izləyib, real klinik halların qiymətləndirilməsi, diaqnostik yanaşmalar və müalicə prosesləri ilə tanış olublar.




Qeyd edək ki, proqram ATU-nun Beynəlxalq əlaqələr şöbəsinin təşəbbüsü ilə təşkil olunub.

**Universitetimizin 10 fəal tələbəsi 5 qitəni əhatə edən "Startup School 4: 5 Continents, 500 Startups" beynəlxalq innovasiya proqramını uğurla başa vuraraq sertifikat əldə edib.**

# Qlobal proqramda uğurlu iştirak

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "Enterprise Azerbaijan" portalı tərəfindən təşkil olunan qlobal proqram dünyanın müxtəlif regionlarından gənc innovatorları və startapçıları vahid innovasiya platformasında bir araya gətirib.

Proqramın əsas məqsədi gənc startapçıların qlobal innovasiya ekosisteminə inteqrasiyası, onların beynəlxalq şəbəkələrə çıxışı, təcrübəli mentorlarla əlaqələr qurması və vençur fondları ilə əməkdaşlıq imkanlarının genişləndirilməsinə dəstək olmaqdır.

Sertifikat qazanan tələbələrimiz Cavid Ələkbərli, Amin Əhmədov, Elturan Göyüşov, Zenfira Ağayeva, Samirə Məhərrəmova, Aydan Paşayeva, Selcan Abbaslı, Sayalı Rəcəbli, Fərid Rzayev, Jalə Zeynallı və Nihat Cabbarovdur.

**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ**
**AZƏRBAYCAN TİBB UNİVERSİTETİ**

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Kafedranın müdiri:**
- İnsan anatomiyası və tibbi terminologiya kafedrası

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**
**Telefon: 597-10-08**

### Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqi.
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər və kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifəyə yenidən seçilmək istəməsi, iştirak etdiyi ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefon nömrəsi göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş il üzrə həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski (əgər bal-reytinq cədvəli üzrə qiymətləndirilmə zamanı təqdim edilməyibsə).
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomları və elmi ad attestatlarının surəti.
10. "Pedaqoji peşəkarlığın inkişafı" mövzusunda təlimlərdə iştirakı barədə sertifikatın surəti.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**

## Allah rəhmət eləsin!

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın baş laborantı İlkin Şahməmmədliyə atası

**Nuru müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın assistenti Nigar xanıma əzizi

**Tamella xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

II Uşaq xəstəlikləri kafedrasının kollektivi kafedranın dosenti, t.e.d. Gündüz Əhmədova atası

**Əhməd Əhmədovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Elmi Araşdırmalar Mərkəzinin əməkdaşları iş yoldaşları Bəsti Əbilovaya əzizi

**Kənan Hacıyevin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan dili kafedrasının əməkdaşları uzun illər kafedramızda çalışan dosent Məfkurə Hüseynovaya həyat yoldaşı

**Yaşar müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan dili kafedrasının əməkdaşları kafedranın dosenti Pərvin Əzizovaya anası

**Validə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan dili kafedrasının əməkdaşları kafedranın dosenti Elnarə Məmmədovaya dayısı

**Əli bəyin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0015
Sayı 800